2015-ci İLƏ MÖHTƏŞƏM UĞURLARLA

Ötən il ölkə qarşısında duran bümün vəzifələr öz həllini tapmışdır

Başa vurduğumuz 2014-cü il ömrümüzdən keçib tarixə qovuşdu. Bizim hər birimiz kimi, müstəqilliyimiz də bir yaş böyüdü, Azərbaycan dövləti siyasi, sosial-iqtisadi baxımdan daha da güclü oldu. 2014-cü il XXI əsr tariximizə müstəqil Azərbaycan dövlətinin hərtərəfli və dinamik inkişafı baxımından keyfiyyətcə yeni mərhələnin uğurlu davamı və parlaq səhifəsi kimi daxil olaraq, zəngin tarixi-siyasi, iqtisadi və mədəni hadisələrlə yadda qaldı. Son on bir ildə aparılan genişmiqyaslı islahatların, həyata keçirilən dövlət proqramlarının məntiqi nəticəsi olaraq respublikamız 2014-cü ildə daha böyük uğurlar əldə etməyə nail oldu. Möhtəşəm nailiyyətlər fonunda dövlətçiliyimiz də möhkəmləndi, siyasi və iqtisadi qüdrətimiz, dünyadakı nüfuzumuz daha da yüksəldi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində son illər ölkəmizin çox uğurla inkişaf etdiyini önə çəkərək deyib: **"2014-cü il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilmişdir. Ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim təsir imkanlarımız da genişlənir. Bildiyiniz kimi, 2012-2013-cü illərdə Azərbaycan dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasında təmsil olunurdu. 155 ölkənin dəstəyi ilə biz bu haqqı qazanmışdıq. Bu il isə Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edirdi, Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına öz dəyərli töhfəsini vermişdir. Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Qonşu dövlətlərlə və bütün digər dövlətlərlə səmərəli əməkdaşlıq edirik. İkitərəfli əlaqələrimiz inkişaf edir. Eyni zamanda, Azərbaycan çoxtərəfli formatda öz müsbət rolunu oynayır. Xüsusilə regional inkişaf məsələlərində Azərbaycanın rolu danılmazdır. Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə - siyasi, iqtisadi, enerji və digər layihələr icra edilə bilməz".**

Yeni ilə qədəm qoyarkən keçilmiş yola bir daha nəzər salmaq, ötən ilin yekunlarını təhlil etmək lazım gəlir. Ömür budağımızdan qopub tarixə çevrilən 2014-cü il ən çox nə ilə yadda qaldı? Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni həyatı, daxili və xarici siyasəti hansı uğurlarla, yeniliklərlə, tarixi hadisələrlə mənalandı? Bu sualların cavabı, əslində Azərbaycanın gözgörəsi yüksəlişinin, hər birimizin həyat tərzimizin özüdür. Dünyadakı nüfuzumuzun durmadan artması, sosial-iqtisadi qüdrətimiz, nəhəng abadlıq-quruculuq işləri, dünya miqyaslı layihələrin reallaşmasının vüsətindədir.

2014-cü ildə də Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən olub. Bu ildə də sosialyönümlü siyasət həyata keçirilib, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, vətəndaşları narahat edən problemlərin həlli, onların istək və arzularının qarşılanması daim dövlətin diqqət mərkəzində olub, bu sahədə ardıcıl tədbirlər görülüb. Azərbaycan 2014-cü ildə mövcud iqtisadi potensialını daha da gücləndirdi. ÜDM-də qeyri-neft sektorunun yüksək templərlə artımı ölkəmizin hərtərəfli inkişafına çox böyük dərəcədə müsbət təsir göstərən aparıcı amilə çevrildi. İqtisadiyyatımızın, dövlət büdcəmizin dünyada analoqu olmayan sürətli artımı, təbii ki, 2014-cü ildə də bütün sahələrdə irəliləyiş, canlanma, müasir infrastrukturun formalaşması, ən yeni informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqi, Bakı şəhərində və bütün bölgələrimizdə nəhəng abadlıq və quruculuq işlərinin geniş vüsət alması ilə müşayiət olundu. Dövlətimizin başçısının qeyd etdiyi kimi, iqtisadi inkişafı göstərən bütün statistik göstəricilər çox müsbətdir. Artıq Azərbaycanın 53 milyard dollardan çox valyuta ehtiyatları vardır. Ölkə iqtisadiyyatına milyardlarla dollar investisiya qoyulur və ildən-ilə sərmayə qoyuluşu daha da artır. Dövlət büdcəmiz 2003-cü illə müqayisədə dəfələrlə artaraq hazırda 25 milyard dollar səviyyəsindədir və Cənubi Qafqazın ümumi büdcəsinin 76 faizini təşkil edir. Bu il ölkədə 100 minə qədər yeni iş yeri açılmışdır. Bütövlükdə son on bir il ərzində bir milyon 300 min yeni iş yeri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yeridir. Bu faktlar öz-özlüyündə çox şey deyir, inkişafımızın barometri rolunu oynayır.

Ötən ilin dinamik inkişaf və tərəqqi baxımından statistikası real həyat həqiqətlərində - sosial problemlərin davamlı həllində, işsizliyin, yoxsulluğun aradan qaldırılmasında, regionların davamlı tərəqqisində, nəhəng infrastruktur və enerji layihələrinin reallaşdırılmasında, cəmiyyətdə işgüzar fəallığın artmasında, mənəvi-psixoloji ovqatın yüksəlməsində əksini tapır. Bu nailiyyətlər dövlət başçısının bölgələrə səfərləri zamanı vəziyyətin təhlili əsasında iqtisadiyyatın inkişafı üçün prioritet istiqamətləri müəyyənləşdirməsinin, tarazlı və davamlı regional tərəqqini təmin edən fundamental dövlət proqramlarının hazırlanmasına dair ferman və sərəncamlarının, eləcə də onların həyata keçirilməsi istiqamətindəki əzmkar zəhmətinin bəhrəsidir.

Azərbaycanda innovasiyalara, yeni texnologiyalara, elmin inkişafına çox böyük önəm verilir. Elmin İnkişafı Fondu yaradılıb. Dövlətimizin başçısının qeyd etdiyi kimi, ölkəmizin bütün təşəbbüsləri, iqtisadiyyatla, enerji ilə, nəqliyyatla bağlı layihələr uğurla nəticələnir. Azərbaycan hazırda iqtisadi, siyasi cəhətdən müstəqil bir ölkədir, müstəqil xarici siyasət yürüdür. Bu siyasət dünyanın əksər ölkələri tərəfindən dəstəklənir.

2014-cü ilin Azərbaycanda "Sənaye ili" elan olunmasında əsas məqsəd sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin inkişaf etdirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb olunması, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi idi. Ötən ildə sənaye potensialının gücləndirilməsi, bu sahədə rəqabət qabiliyyətinin artırılması, kadr potensialının inkişaf etdirilməsi, müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı böyük işlər həyata keçirilib, 40-dan çox orta və iri sənaye müəssisəsi açılıb.

Bu möhtəşəm uğurlar fonunda 2014-cü ilin ən mühüm tarixi hadisəsi təbii ki, sentyabrın 20-də Bakıda Azərbaycanın təşəbbüsü, iştirakı və dəstəyi ilə XXI əsrin möhtəşəm layihəsinin, "Cənub" qaz dəhlizi tikintisinin təməlinin qoyulması oldu. Avropanın enerji xəritəsini tamamilə dəyişdirəcək və Avropa ilə Asiyanı birləşdirəcək bu tarixi layihə dünyanın bir çox dövlət və şirkətlərinin geniş əməkdaşlığını təmin edəcəkdir. "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi və "Cənub" qaz dəhlizi layihələri dünyanın neft-qaz sənayesində indiyə qədər həyata keçirilmiş ən böyük və mürəkkəb təşəbbüslərdən hesab olunur.

"Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin son 20 ildəki inkişafından, dünyanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolundan danışaraq deyib: **"Azərbaycan artıq "Cənub" qaz dəhlizinin birinci hissəsini 2007-ci ildə istifadəyə vermişdir. Ondan sonrakı dövr ərzində biz böyük layihə üzərində işləyirdik. Bildiyiniz kimi, bir neçə variant var idi. 2012-ci ildə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində Trans-Anadolu kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilmişdir. TANAP layihəsi və onun həyata keçirilməsi tarixi hadisədir. Məhz TANAP layihəsinin razılaşdırılmasından sonra artıq "Cənub" qaz dəhlizinin konturları görünməyə başlamışdır. 2013-cü ildə TAP layihəsi - Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə idi. Eyni zamanda, keçən il artıq qazın satışı ilə bağlı kontraktlar imzalanmışdır. Yəni bu gün bizim önümüzdə bütün üfüqlər açıqdır, yollar aydındır. Sadəcə olaraq, biz birgə səylərlə "Cənub" qaz dəhlizinin tamamlanmasını təmin etməliyik və bunu edəcəyik. Bir sözlə, son illər ərzində Azərbaycan öz enerji siyasətini ardıcıl şəkildə irəliyə aparır. Yəni bugünkü mərasim sadəcə olaraq görülən işlərin zirvəsidir. Əgər əvvəlki dövrlərdə dediyim məsələlər öz həllini tapmasaydı, bu gün "Cənub" qaz dəhlizindən söhbət belə gedə bilməzdi. Hazırda layihə tam hazırdır".**

Xəzər regionundan Avropaya qaz təchizatı marşrutlarının şaxələndirilməsinin enerji təhlükəsizliyini şərtləndirən faktorlardan biri olan "Cənub" qaz dəhlizi həqiqətən də Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfənin yeni səhifəsini açdı. "Cənub" qaz dəhlizinin fəaliyyətə başlaması nəticəsində ölkəmizin neft-qaz sənayesində bir sıra daha mühüm nailiyyətlərin əldə edilməsi gözlənilir. Transxəzər layihəsinin gerçəkləşməsi istiqamətində aparılan danışıqlar, Xəzərin Azərbaycan sektorunda yerləşən yeni yataqların daha sürətlə işlənilməsi, "Azəri-Çıraq-Günəşli" blokunda yerləşən dərin qaz laylarının mənimsənilməsi, "Abşeron", "Ümid" və digər perspektiv strukturlarda hasilatın artırılması bu dəhlizin fəaliyyətə başlamasının ölkə iqtisadiyyatına qazandıracağı nailiyyətlərdəndir. Layihənin reallaşdırılması məqsədilə Azərbaycan iqtisadiyyatına investisiyaların axını qarşıdakı illərdə də davam edəcəkdir.

Müstəqil Azərbaycan dövləti dünya miqyasında geostrateji əhəmiyyətə malik olan əlverişli coğrafi mövqeyindən, zəngin təbii ehtiyatlarından və böyük potensialından istifadə edərək, Şərq ilə Qərb arasında körpü rolunu səmərəli surətdə həyata keçirir. Bütün bunlar ölkəmizi siyasi, iqtisadi və humanitar arenada dünyanın ən önəmli

üzvlərindən biri kimi təsdiqləyib. Dünya miqyasında böyük əks-səda doğuran və artıq ənənə halını almış Bakı Beynəlxalq Humanitar Forumunun məhz Bakıda keçirilməsi də bu reallığın nəticəsidir. Çox qədim tarixə və mədəniyyətə malik Azərbaycan əsrlər, minilliklər boyu sivilizasiyaların, fərqli mədəniyyətlərin qovuşduğu unikal bir məkan olub. Ölkəmiz müasir dövrdə də dünya mədəniyyətinə öz misilsiz incilərini töhfə verməkdədir. Dünyanın 60-dan çox ölkəsindən forumda iştirak edən 500 nəfərədək nümayəndə arasında Nobel mükafatı laureatları, sabiq dövlət başçıları, görkəmli incəsənət və mədəniyyət xadimləri, siyasətçilər, alimlər, habelə dünyanın aparıcı kütləvi informasiya vasitələrinin təmsilçilərinin olması bu beynəlxaq tədbirə verilən böyük önəmin təzahürüdür. Bakı Beynəlxalq Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün isə ideal yerdir. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində deyib: **"Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. Bu il mən Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ilə əlaqədar müvafiq sərəncam imzalamışam. Dünyada Azərbaycanın nadir rolu yüksək qiymətləndirilir. Azərbaycan sivilizasiyalararası bir körpüdür. Həm coğrafi, həm siyasi, həm bütün başqa cəhətlərdən Azərbaycan nadir bir ölkədir. Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır".**

Ötən ilin may ayından başlayaraq Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edib. Azərbaycan bu müddətdə korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet istiqaməti seçib, demokratiya, təhlükəsizlik, dinlərarası dialoq məsələlərinə geniş diqqət ayırıb, bir sıra səmərəli təşəbbüslərlə çıxış edib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçinin təyin olunması, Azərbaycanın haqq səsinin Avropa ictimaiyyətinə çatdırılması, Avropada rolunun, nüfuzunun artması və digər məsələlər ölkəmizin 6 ay müddətində bu nüfuzlu qurumun ali orqanına rəhbərliyi dövründə əldə etdiyi uğurlardır. 2014-cü ilin iyununda Bakıda 300-dən artıq deputatın iştirakı ilə ATƏT Parlament Assambleyasının sessiyası keçirilib. Sessiyada qəbul olunmuş Bakı Bəyannaməsində ölkələrin sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü prinsipi bir daha vurğulanıb. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində cənab İlham Əliyev deyib: "Ancaq əfsuslar olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu il də öz həllini tapmamışdır. Buna səbəb Ermənistanda kriminal, qanlı diktatura rejiminin mövcudluğudur. Ermənistan sülh istəmir. Bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın. Bu il vasitəçilər fəallıq göstərmişdilər, bunu biz qeyd etməliyik. Rusiya, Amerika, Fransa - bu ölkələrin rəhbərləri ardıcıllıqla avqust, sentyabr, oktyabr aylarında üçtərəfli görüşlər keçirmişlər. Mən bunu yüksək qiymətləndirirəm və bu ölkələrə minnətdaram. Ancaq Ermənistan bu görüşlərdə özünü səmimi aparmamışdır. Bundan əlavə, Paris görüşündən iki həftə keçməmiş işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu təlimlərin bir məqsədi var idi - Azərbaycanı provokasiyaya çəkmək, təxribat törətmək və danışıqlar prosesinə zərbə vurmaq. Eyni hadisəni biz yay aylarında görmüşdük. O vaxt da erməni təxribatçı qrupları Azərbaycan mövqelərinə hücum çəkmişdilər. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab vermişdir, 50-dən çox işğalçı məhv edilmişdir... İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər".

İqtisadi və sosial sahələrin bütün istiqamətlərdə davamlı artım tempinə nail olan müstəqil Azərbaycan dövləti informasiya-kommunikasiya texnologiyaları sahəsində də dünyanın sürətlə inkişaf edən ölkələri səviyyəsinə yüksəlib. Müstəqil dövlət kimi gənc olmasına baxmayaraq, ölkəmiz qısa zaman kəsiyində bu mühüm sahədə də böyük nailiyyətlər əldə edib. Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları-2014" hesabatında Azərbaycan dünyanın 148 ölkəsi arasında 7 pillə irəliləyərək 56-cı yerdən 49-cu yerə yüksəlib və təxminən 20 göstərici üzrə MDB ölkələri arasında lider olub. Bu rəqəmlər bir daha təsdiqləyir ki, İKT-nin inkişafı ilə bağlı aparılan siyasət öz bəhrəsini verməkdədir.

Bu mənada informasiya-kommunikasiya texnologiyaları üzrə qazanılan nailiyyətlərin və dünyada tətbiq olunan qabaqcıl yeniliklərin nümayiş etdirildiyi "BakuTel" sərgi-konfransı artıq geniş miqyasda özünəməxsus nüfuza malikdir. "BakuTel" sərgisi Xəzər və Qafqaz regionlarında telekommunikasiya, o cümlədən informasiya texnologiyaları sahəsində ən böyük tədbirdir. 2014-cü ildə artıq 20-ci dəfə keçirilən "BakuTel" sərgisi bu illər ərzində telekommunikasiya bazarında mühüm hadisəyə çevrilib. Bu sərginin beynəlxalq nüfuzu Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Telekommunikasiya İttifaqı və Regional Rabitə Birliyinin nümayəndələrinin mütəmadi iştirakı, həmçinin Dünya Sərgi Sənayesi Assosiasiyasının keyfiyyət nişanı ilə təsdiq olunub. Sərgidə Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycanın milli peyk operatoru "Azərkosmos" ASC və Fransanın "Airbus Defence and Space" şirkəti arasında müqavilə imzalanıb. Bu müqavilə ilə Azərbaycan ilə Fransa arasında kosmik sənaye üzrə strateji əməkdaşlıq çərçivəsində bu ilin iyununda orbitə çıxarılan və yeni adı "Azersky" olacaq "Spot 7" yüksək ayırdetməli Yer səthinin məsafədən müşahidə peyki "Azərkosmos" ASC-yə təhvil verilib. Dövlətimizin başçısı peykdən ilk rəmzi görüntünü əldə etməklə "Azersky" peykinin kommersiya fəaliyyətinə start verib. Müqaviləyə əsasən "Azərkosmos"a məxsus "Azersky" və "Airbus Defence" and Space" şirkətinə məxsus "SPOT 6" yüksək ayırdetməli Yer səthinin məsafədən müşahidə peyki hər iki şirkətin daha yüksək xidmət göstərməsi üçün peyk toplusu formasında birgə istifadə olunacaq. "Euronews" telekanalına müsahibəsində Prezident İlham Əliyev bu məsələyə böyük önəm verərək deyib: **"Bu, bizim üçün əlamətdar gündür. Bu müqavilənin imzalanması kosmik sənayenin inkişafı baxımından Azərbaycan üçün çoxlu imkanlar açır. Bildiyiniz kimi, biz iqtisadiyyatımızın şaxələndirilməsi siyasətini həyata keçiririk və bu siyasət uğurludur. İnformasiya-kommunikasiya texnologiyaları və kosmik texnologiyalar bizim üçün əsas prioritetlərdən biridir. Yəqin bilirsiniz ki, biz artıq ilk peykimizi orbitə buraxmışıq. Bu, ikincidir. Proses davam edəcək. Bu, texnologiya, inkişaf, biznes, təhsil baxımından bir çox imkanlar açır. Eyni zamanda, bu peyk bizə kənd təsərrüfatı, fövqəladə hallar sahələrində, həyatımızın müxtəlif sahələrindəki imkanlarımızı daha ətraflı qiymətləndirməyə kömək edəcək. Mən bu müqaviləni yüksək qiymətləndirirəm. Eyni zamanda, bu, Fransa ilə Azərbaycan arasında ikitərəfli səviyyədə beynəlxalq əməkdaşlığın yaxşı nümunəsidir, çünki bu layihə hər iki prezident tərəfindən dəstəklənir. Eyni zamanda, "Azərkosmos" və "Airbus" arasında yaxşı əməkdaşlıq mövcuddur".**

Növbəti bələdiyyə seçkiləri də ilin tarixi hadisələrindəndir. Seçkilərin demokratik və şəffaf keçirilməsi Azərbaycanda seçki ənənəsinin formalaşdığını bir daha təsdiqlədi.

2014-cü ili uğurla başa vuran müstəqil Azərbaycan dövləti qarşıdakı dövrdə də böyük nailliyyətlər əldə ermək əzmindədir. Bu il ölkəmizdə ilk Avropa Oyunları keçiriləckdir. Bu da ölkəmizin nüfuzunun daha bir göstəricisidir. Prezident İlham Əliyev bütün bu məsələlərə böyük önəm verərək deyib: **"Bu gün hər bir həmvətənimiz Azərbaycan Respublikası ilə fəxr etməkdə haqlıdır. Biz keçən illər ərzində iqtisadiyyatımızı sürətlə inkişaf etdirməyə, əhalinin rifah halını yüksəltməyə, yoxsulluq və işsizlik kimi sosial bəlaların səviyyəsini mimimuma endirməyə nail olmuşuq. Enerji resurslarından əldə edilən gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə, insan kapitalının və demokratik institutların inkişafına yönəldilmişdir. Ölkədə nəhəng nəqliyyat və sosial infrastruktur layihələri icra edilmiş, elm, təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafı üçün müasir və güclü maddi-texniki baza yaradılmışdır. Sivilizasiyalararası dialoq və humanitar əməkdaşlıq istiqamətində irəli sürülən təşəbbüslər, yüksək səviyyədə keçirilən beynəlxalq forumlar ölkəmizi multikulturalizm və tolerantlığın mərkəzi kimi tanıtmışdır".**

Xəlil JABBAROV,
"Respublika".